# Azərbaycan öz qələbəsi ilə Ermənistanla yanaşı, Fransanı da məğlub edib

"Fransa prezidentinin ölkəmizə qarşı yürütdüyü qərəzli siyasətinin səbəbi aydındır. Paris Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsinin nəticəsini öz məğlubiyyəti kimi qəbul edir. ATƏT-in Minsk qrupunun həmsədri olduqdan bəri Ermənistanı bəzən açıq, bəzən isə qapalı şəkildə müdafiə edən Fransa Azərbaycan ərazilərinin təcavüzkar Ermənistan tərəfindən işğalının uzadılmasında maraqlı olub".



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Musa Qasımlı deyib. Deputat bildirib ki, Azərbaycan 44 günlük Vətən müharibəsində qazandığı qələbə ilə təkcə işğalçı Ermənistan və dünya erməniliyi üzərində deyil, həm də Fransa üzərində qələbə qazandı: "Fransa bu məğlubiyyətini heç cür həzm edə bilmir. Bundan başqa, Azərbaycanın dövlət müstəqilliyini bərpa etdikdən bəri ilk dəfə olaraq Həkəri çayı üzərindəki körpüdə Ermənistanla sərhəddə keçid məntəqəsi yaratmasını, Fransadan humanitar yük adı altında göndərilən TIR-ların geri qaytarılmasını BMT Təhlükəsizlik Şurasının daimi üzvü və nüvə dövləti olan Fransa özünün alçaldılması kimi qəbul etdi. Fransanın bu qondarma "humanitar" missiyası iflasa uğradı. Beləliklə, Fransa dünyada gözdən düşmüş oldu".

Deputat söyləyib ki, Azərbaycanın antiterror tədbirləri zamanı separatçı rejimi diz çökdürməsi, daha sonra Xankəndidə Prezident İlham Əliyevin dövlət bayrağımızı ucaltması, parad keçirilməsi təkcə separatçılara, Ermənistana və dünya erməniliyinə deyil, Fransaya da ağır zərbə oldu: "Növbədənkənar prezident seçkilərində Prezidentimiz Xankəndidə səs verməklə Fransa tərəfindən dəstəklənən separatçılığın ölkəmizdəki tabutuna son mismarı vurdu, separatçılıq məzara qoyuldu. Bununla Fransanın Azərbaycana təcavüzkar Ermənistan vasitəsilə təzyiq üsulları aradan qalxdı. Nəhayət, dövlət başçısının Xankəndidə qaladığı Novruz tonqalı Ermənistanın "Miatsum" planlarının, separatçılığın və Fransanın arzu və istəklərinin yanıb külə dönməsi oldu".

Musa Qasımlı Fransanın ölkəmizə qarşı qərəzinin kökündə həm də Azərbaycanın yeni müstəmləkəçiliyə qarşı mübarizənin önündə getməsi faktorunun dayandığını qeyd edib. Bildirib ki, neokolonializmi həyata keçirən Fransa Azərbaycanla üzləşib və belə demək mümkündürsə, sanki daş qayaya rast gəlib. Nəzərə almaq lazımdır ki, daş parçalana bilir, qaya isə həmişə yerindədir. Deputat onu da vurğulayıb ki, Fransanın Azərbaycana belə riyakar münasibət bəsləməsinin arxasında təkcə siyasi-strateji maraqlar dayanmır, eyni zamanda dini amillər də rol oynayır.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

Azərbaycan. - 2024.- 9 aprel, № 73.- S.5.